# Xarici investorların Qarabağa gəlməsi təqdirəlayiqdir

***"Azərbaycan Prezidenti İlham Əliyevın iştirakı ilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin "Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri" adlı videoformatda keçirilən müzakirələrdə dövlət başçımızın bu tədbiri yüksək dəyərləndirməsi, onu qlobal gündəlikdə duran mühüm məsələlərdən biri hesab etməsi, bu yaxınlarda Cənubi Qafqaz regionunda kəskin dəyişikliklərə uyğun olaraq yeni vəziyyətin yeni yanaşmalar tələb etməsini vurğulaması, düşünürəm ki, çox vacib və aktual nüansdır". Bu fikirləri Milli Məclisin deputatı Aydın Hüseynov həmin tədbirdə Prezidentin çıxışına və ona ünvanlanan suallara verdiyi cavablara münasibət bildirərkən dedi. Deputat Prezidentin fikirlərini yüksək dəyərləndirərək bildirdi:***



– Dövlət başçımız Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin yeni şəraitə özünü çox müdrik formada uyğunlaşdırdığını, pandemiya ilə bağlı vəziyyətdən asılı olmayaraq, öz fəaliyyətini yeni formada davam etdirdiyini, eyni zamanda, bu fəal işin aparıldığı səkkiz il ərzində dünyada aparıcı beynəlxalq təsisatlardan birinə çevrildiyini qeyd etdi. Onun fəaliyyətinin, əslində, dünyada sülh, əməkdaşlıq, təhlükəsizlik və sabitlik işinə xidmət etdiyini, bu cür təcrübənin bir araya toplanmasını bugünkü dünyada nadir hadisələrdən biri hesab etdiyini bildirdi.

Cənab Prezident çıxışında aparılan müzakirəni yüksək dəyərləndirdi. Otuz il çəkən işğal faktı səbəbindən, Azərbaycanın öz mövqeyini – ərazilər azad olunmayana qədər Ermənistanla əməkdaşlıq etməyəcəyimizi birmənalı şəkildə bəyan etdiyimizi vurğuladı. Ermənistanın özünün də çox böyük səhvə yol verdiyini başa düşdüyünü dedi. Bildirdi ki, bu gün Ermənistan ordusu tamamilə məhv edilib. Ölkə altı aydan çoxdur ki, siyasi böhran içindədir. Onlar Azərbaycanın enerji və daşımaların inkişafı təşəbbüslərindən məhrum oldular. Eyni zamanda, işğal etdikləri, onlara nə tarixi nöqteyi-nəzərdən, nə də ki, beynəlxalq hüquq baxımından məxsus olmayan əraziləri itirdilər. Dağlıq Qarabağ münaqişəsi, ilk növbədə, Azərbaycan tərəfindən, sonra isə ötən ilin 10 noyabr tarixli birgə bəyanat ilə artıq həll olundu.

Dövlət başçısı diqqətə çatdırdı ki, 30 illik işğala, azad olunmuş ərazilərdə genişmiqyaslı dağıntılara və ermənilərin hər şeyi məhv etdiklərinə baxmayaraq, Azərbaycan gələcəyə nəzər salmağa, vahid inteqrasiya edilmiş Cənubi Qafqaz regionunun bir hissəsi olaraq, öz gələcəyini planlaşdırmağa hazırdır. Biz artıq çox mühüm təkliflərlə və təşəbbüslərlə – xüsusən də, kommunikasiyaların və yeni daşımalar dəhlizlərinin açılması ilə bağlı fikir bildirmişik. Bu layihənin həyata keçirilməsi ilə bağlı artıq texniki və maliyyə imkanları ayrılıb. Zəngəzur dəhlizi açıldıqdan sonra bütün region ölkələri üçün yeni imkanlar yaranacaq.

**Aydın Hüseynov müzakirələrdə dövlət başçısına ünvanlanan suallara Prezidentin verdiyi əhatəli cavablara münasibət bildirərək dedi:**

– Cənab Merkel tərəfindən verilən sualları cavablandıran Prezident enerjinin Avropaya çatdırılması məsələsində tarixi layihə olan Cənub Qaz Dəhlizinin tamamlanması nöqteyi-nəzərdən ötən ilin sonuncu gününün əlamətdar olduğunu vurğuladı. Bildirdi ki, sərbəst inteqrasiya olunmuş 3,5 min kilometr uzunluğunda qaz boru xətləri birləşdirilmiş və ilk dəfə Azərbaycan qazı Avropaya çatdırılmışdır. Bu, həqiqətən də tarixi hadisədir. Çünki layihə hər nöqteyi-nəzərdən – maliyyə, siyasi və texniki baxımdan böyük bir çağırış idi. Bəziləri Avropa İttifaqının üzvü olan, bir neçə ölkəni təmsil edən komanda olaraq, ölkəmiz Avropanın enerji təhlükəsizliyinə həqiqətən də mühüm töhfə verdi. Azərbaycanda yeni yataqların kəşf edilməsini və təbii qazın hasilatının yeni səviyyəsini nəzərə alaraq bu, gələcək onilliklər ərzində davam edəcək layihədir.

Azərbaycan qazı Avropa qitəsi üçün yeni qazdır, hazırda Avropaya qazın yeganə yeni mənbəyidir və cəlb olunmuş ölkələr arasında böyük dərəcədə çoxtərəfli əlaqələri gücləndirib. Asiyanı Avropa ilə birləşdirmək üçün logistik dəstəkdən və Çinin "Bir kəmər, bir yol" təşəbbüsündən danışaraq, onu beynəlxalq gündəliyin mühüm hissəsi hesab edən dövlət başçısı Azərbaycanın öz ərazisində bütün zəruri nəqliyyat layihələrini tamamladığını, həmin təşəbbüs çərçivəsində ölkəmizin Asiya və Avropadakı tərəfdaşlarla mühüm bağlantımız olduğunu diqqətə çatdırdı.

Bu önəmli layihənin bir hissəsi olmaq üçün infrastrukturumuzun, o cümlədən dəniz limanının, Xəzər hövzəsində ən böyük gəmi parkının və dəmir yolu imkanlarının təmin edildiyini yada saldı. Dövlət başçımız bu layihəyə maliyyə və siyasi cəhətdən investisiya yatırıldığını vurğulayaraq dedi: "Ümid edirəm ki, bu iki mühüm sahə – enerji təhlükəsizliyi və nəqliyyat təhlükəsizliyi nəinki təkcə Azərbaycanın gələcək iqtisadi inkişafı üçün önəmli rol oynayacaq, – çünki bu, əlavə gəlirlərin yaranmasına səbəb olacaq, – həm də regional sabitliyə ciddi şəkildə töhfə verəcək. Çünki ölkələr bir-birindən asılı olur, ölkələr bir gəmidə olduğu üçün bir komandanın üzvü olur və əlbəttə ki, qarşılıqlı dəstəyin səviyyəsi artacaq".

Beynəlxalq banklarla bağlı suala cavab verən dövlət başçısı bildirdi ki, biz Cənub Qaz Dəhlizi layihəsini həyata keçirəndə bütün əsas beynəlxalq maliyyə institutları bizim tərəfdaşlarımız idi. Prezident Dünya Bankının, Avropa Yenidənqurma və İnkişaf Bankının, Asiya İnkişaf Bankının, Avropa İnvestisiya Bankının və Çin tərəfindən təsis olunmuş İnfrastruktur və İnvestisiya Bankının, yəni, bütün aparıcı beynəlxalq maliyyə institutlarının layihədə iştirak etdiyini dedi. Bildirdi ki, bankların Azərbaycana, maliyyə dəstəyi verməkdənsə, əcnəbi və yerli investorların işğaldan azad edilmiş ərazilərdə layihələri həyata keçirməyə kömək göstərməsi böyük önəm kəsb etməklə inkişafa zəmin yaradar.

*Zərifə BƏŞİRQIZI,*
*"Xalq qəzeti"*

Xalq qəzeti 2021.- 1 iyun.- S.7.